Tarix və onun problemləri, №4 2009

M.M.ABBASOVA

*BDU*

# SİYASİ MİLLİ ŞÜUR: QURULUŞU, MƏRHƏLƏLƏRİ VƏ İNKİŞAFI

Müasir şəraitdə siyasi şüur probleminin rolu durmadan artır. Respublikanın müstəqillik qazanması ilə əlaqədar demokratik proseslərin genişlənməsi, yeni-yeni partiyaların və cəmiyyətlərin yaranması böyüməkdə olan gənc nəslin daha çox siyasi proseslərə qoşulması ilə nəticələnir. Bu da öz növbəsində insanları daha çox siyasi fəaliyyətə doğru aparır. Siyasi fəaliyyətin yüksəlib azalması da özlüyündə siyasi şüurun artıb azalmasına səbəb olur. Siyasi şüur-ictimai şüurun tərkib hissəsi və onun ali formasıdır.Siyasi şüur- sosial tərəqqi və inkişaf yolunda çox qüdrətli bir vasitədir. Siyasi şüur bir ənənə formasında mövcud olub qədim dövlət hakimiyyətlərinin təbiətini əsaslandırmaq üçün bir vaitə rolunu oynamışdır. Müəyyən ideoloji qəliblərə və formalara salınan siyasi şüur əslində hakim siniflərin, millət və xalqların, partiyaların mövqelərinin müdafiəçisi rolunda çıxış etmişdir. İçtimai şüurun mühüm komponenti və ya forması olmaq etibarilə siyasi şüurun ilk ünsürləri hələ sinifli cəmiyyətin yaranması, dövlətin bir struktur elementi kimi meydana gəlməsi şəraitində, insanların ictimai ədalətsizliyə qarşı aparıcı mübarizə şəraitində formalaşmışdır.Ona görə də siyasi şüurun formalaşmasını və inkişafını cəmiyyət həyatında, onun ictimai varlığından və ictimai münasibətlərin formalaşması və inkişafı prosesindən ayrılıqda götürmək olmaz.

Deməli siyasi şüurun təşəkkülü və inkişafı cəmiyyətin myəyyən inkişaf mərhələləri ilə sıx surətdə bağlı olduğundan onu cəmiyyətin yaranması və tarixi inkişaf mərhələlərilə əlaqələndirmək tələb olunur.Siyasi şüurun inkişafı cəmiyyətin demokratikləşməsi, insanın fərdi və ictimai azadlığının təmin olunması ilə bilvasitə əlaqədardır. Ona görə də göstərilən problemin tədqiqirdə bu göstərilən məsələlər nəzərə alınmalıdır.Çünki, müasir insan cəmiyyəti özünün inkişafında elə bir mərhələyə gəlib çatmışdır ki, insanın şüurluluq səviyyəsi, siyasi mədəniyyəti ictimai həyatın bütün sahillərində uğurların həlledici amilinə çevrilmişdir.

Siyasi şüur siyasi mədəniyyətlə bağlı hadisə olsa da onlar ayrı-ayrı anlayışlardır. Siyasi şüur sferasına daxil olan siüasi biliklər, siyasi inanclar, siyasi stereotiplər həm də siyasi mədəniyyətlə qırılmaz surətdə əlaqədardır. Ona görə də onları çox vaxt eyniləşdirirlər. Halbuki, siyasi mədəniyyət siyasi şüurdan daha çox siyasi qavranışla bağlıdır. Siyasi qavranış bir sıra müəlliflərin fikrincə siyasi mentalitet, siyasi iradə, siyasi şüurun özüdə siyasi mədəniyyətə güclü təsir edən bir fenomen olub iki səviyyədə mövcuddur; 1) siyasi nəzəriyyə, doktirina, təlim, proqram və.s.şəkildə; 2) siyasi ənənə, siyasi qavranış şəklində. Birincilər adi siyasi şüur səviyyəsinə, ikincilər isə ali siyasi şüur səviyyəsinə uyğun gəlir. N.P.Polivayeva siyasi şüur səviyyəsinə aşağıdakı elementləri daxil edir:

-siyasi ideologiya və siyasi psixalogiya;
- siyasi özünü dərk, siyasi biliklər, siyasətin subyekti olan sosial qrupl
- arın və cəmiyyətin özünün mənafe və maraqları və onları idarə edən ideyalar
- xüsusi (siyasi partiya və.s.) və kütləvi siyasi şüur;
- siyasi ənənələr, ideyalar, stereotiplər, fikirlər,emosiyalar, hisslər və.s.1

Siyasi şüurun tədqiqat səviyyəsindən asılı olaraq aşağıdakı növləri vardır: kütləvi, qrup, fərdi.2 Siyasi şüur-ictimai şüurun bir hissəsidir. Siyasi şüur sahəsinə siyasi sistem və bu sistemdə hakimiyyət münasibətləri, dövlət idarəçiliyi, siyasi institutlar, azadlıq, ədalət, bərabərlik, insan hüquqları, demokratik prinsiplər və.s. daxildir. İctimai şüur isə daha geniş anlayış olub insanın öz ətrafına münasibətini ifadə edir. Bu münasibət

adamların fəaliyyəti ilə müəyyən olunur. Burada əsas rolu sosiokultur və sosio-politoloji amillər oynayır. «Cəmiyyətin mənəvi mədəniyyəti» ilə «İctimai şüur» anlayışları çox vaxt nəzəri ədəbiyyatda sinonim sözlər kimi işlədilmişdir.3

Hlbuki,cəmiyyətin mənəvi mədəniyyəti anlayışı ictimai şüura nisbətən geniş anlayışdır.4

Siyasi mədəniyyətlə bağlı sosial fonemenlərdən biri də əxlaq və siyasi davranış normalarıdır. Əxlaq- mövcud əxlaq normalarını, münasibətləri, əxlaqi fəaliyyəti, adət və ənənələri və.s. əhatə edir. Bu normalar insanın tarixi inkişafı nəticəsindəqərarlaşan fəaliyyət və davranış normalarının məcmusu kimi vahid bir sosial birliyə xidmət edir. Müəyyən hallarda əxlaq cəmiyyətin və yaxud da əlahiddə götürülmüş bir qrupun və ya şəxsiyyətin və ya siyasi mədəniyyətinin göstəricisi kimi çıxış edə bilər.

Siyasi milli şüurun təşəkkülü və inkişafı millətin müəyyən tarixi inkişaf mərhələləriilə əlaqədardır. Milli siyasi şüur cəmiyyət həyatında baş verən demokratikləşmə prosesinə yüksəlir. Ona görə də bu problem millət üzvlərinin azadlığı və məsuliyyətilə, siyasi mədəniyyətin inkişafı dərəcəsilə, keçmiş olduğu uzun tarixi inkişaf yolu ilə, müasir sosial-siyasi hadisələrin ona təsiri ilə və.s. amillərlə əlaqədardır.

Azərbaycanda milli-siyasi şüurun yaranması və tarixi təkamülü, türkçülük, islamçılıq və azərbaycançılıq cərəyanları, milli-demokratik ideyaların və liberal-siyasi axımların, milli maarifçilik məfkurəsinin formalaşması,Azərbaycan ideyasının qaynaqları, ideya-siyasi və fəlsəfə-nəzəri mənbələri əsrimizin əvvəllərində Azərbaycan ictimai-siyasi fikrində özünəməxsus yeri və rolu olan qabaqcıl millət münəvvərlərindən olan Ə.Hüseynzadənin, M.Ə.Rəsulzadənin, M.V.Məmmədzadənin, Ə.Ağayevin, Ü.V.Çəmənzəminlinin, H.B.Zərdabinin, C.Məmmədquluzadənin, N.Vəzirovun və onlarca başqalarının əsərlərində öz əksini tapmışdır.

XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan milli şüurunun oyanışı dövrü idi. Bu dövrü tədqiq edən Azərbaycan alimlərimövcud ideya – siyasi cərəyanları, milli burjuaziyanın formalaşmasını, milli dil və mədəniyyət uğrunda yerli ziyalıların çarizmə və irticaya qarşı apardıqları mübarizənin istiqamətlərini, forma və metodlarını müxtəlif metodoloji mövqelərdən açıb göstərmişlər.

Müasir müstəqillik və demokratiya hərəkatı siyasi şüurun ideolgiyasızlaşdırılması və milli – siyasi şüurun formalaşdırılması tələbini irəli sürür. Lakin bu heç də onun qarşısında duran ümumbəşəri və qlobal vəzifələrin əhəmiyyətini azaltmır, əksinə, bu vəzifələrin milli – siyasi şüur problemlərilə əlaqələndirilməsinə imkan yaradır.

Siyasi şüur siyasətlə və siyasi münasibətlərlə əlaqədardır. Ona görə də onun formalaşması bir tərəfdən cəmiyyətin təbii – tarixi inkişafı ilə, digər tərəfdən isə insanların şüurlu fəaliyyətilə təşəkkül tapıb inkişaf edir. ona görə də, o, ictimai şüurun digər formalarına təsir edib onları dəyişdirir və hətta onların sosial – sinfi dominantı rolunda çıxış edir. Siyasi şüur ictimai şüurun digər növlərindən daha mütəhərrik olub xüsusi təkanverici qüvvəyə malikdir.

Cəmiyyətin siyasi şüuru dedikdə sinfi, milli, inqilabi, ictimai – siyasi və nəhayət ideoloji münasibətlərin tam bir sistemi nəzərdə tutulur. Siyasi şüur öz quruluşuna görə: 1) adi – praktiki; 2) ideya – nəzəri səviyyələrdə mövcud olur.

Siyasi şüur və siyasi fəaliyyət bir – birilə qırılmaz əlaqədə olan anlayışlardır. Siyasi şüuru yüksək olan cəmiyyətlərdə siyasi fəaliyyətlərlə məşğul olan siyasi liderlər daha tez başa düşülür, onların işi asanlaşır, xalqın azadlıq mübarizəsindən öz məqsədləri üçün istifadə etməyə çalışan müxtəlif qruplaşmalar elə bir fəaliyət göstərə bilmirlər. Bu mənada istər cəmiyyətin, istərsə də millətin siyasi şüur səviyyəsinin öyrənilməsi müstəqillik qazanmış Azərbaycan xalqı üçün müstəsna əhəmiyyətə malikdir. Respublikanın müstəqil milli inkişaf yoluna qədəm qoyması xalqın və xüsusən gənclərin siyasi şüur

səviyyəsinin artırılmasınıf zəruri edir. siyasi şüurun tədqiq olunması, milli siyasi şüurun kompanentlərinin öyrənilməsi müstəqil həyata qədəm qoymuş yeni milli kadrların siyasi fəaliyyətinə müsbət təsir göstərə bilər.

Millətlərarası, siniflərarası, qruplar və partiyalararası münasibətlər siyasi münasibətlər.

Siyasi münasibətlərdə və siyasi prosesdə iştiraketmə səviyyəsi millətin siyasi mədəniyyət səviyyəsindən və istiqamətindən asılıdır.

Müasir keçid dövrü şəraitində göstərilən problemin öyrənilməsi və tədqiqi müstəqil əhəmiyyət kəsb ebir.

Milli dövlətin yaranması və inkişafı millətin dövlətyaratma və dövlətə malik olma ehtiyatlarından doğur, milli ideyanın reallaşmasını zəruri edir.

Milli dövlətlərin yaranması millətçilik ideologiyasının hakim mövqe tutmasına səbəb olur, daha doğrusu millətçilik ideologiyasının əsas qayəsi milli dövlətin yaradılmasıdır.

### *ƏDƏBİYYAT:*

1.Поливаева Н.П.Политическое сознание //Государство и право, 1993, [1]5, с.132.
2.Сергиенко П. Массовое политическое сознание. Киев, 1991,с.30.
3. Философская енциклопедия.М.Сов.энциклопедия, 1978,т.5.с.43.
4.Уделов А.К. Духовная жизнь обшества.М.Мысль, 1988,с.21.

**АББАСОВА М.М.**

## ПОЛИТИЧЕСКОЕ - НАЦИОНАЛЬНОЕ СОЗНАНИЕ: СТРУКТУРА, СТУПЕНИ И ЭТАПЫ РАЗВИТИЯ

В статье указывается, что в современную эпоху возрастает роль политического сознания. Автор расскрывает политическое сознание, как форму общественного сознания, дает структуру и етапы развития политического—национального сознания.

**ABBASOVA M.M.**

## POLITIKO- NATIONAL CONSCIOUSNESS STRUCTURE STAGES AHD THE DEVELOPMENT OF STEPS

In the article there is shown that the role of political consciousness is being **increased** at contemporary epoch .

The author finds out the political consciousness as the form of social consciousness and gives the structure and development of stages of politico- national consciousness as well.

***Rəyçilər: f.e.n.B.X.Əlizadə, f.e.d.N.Mikayılov.***

***BDU Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının 21 noyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***